**EYUP ZENGIN**
*fəlsəfə elmləri namizədi*

# TÜRKİYƏDƏ VƏ AZƏRBAYCANDA DAVAMLI URBANİZASİYA İLƏ BAĞLI FİKİRLƏR VƏ TÖVSİYƏLƏR

## GİRİŞ

Əzində yaşadığımız əsrdə sürətli insan artımı və şəhərləşmə, insanın təbiət ilə münasibətlərindən əmələ gələn sistemdə, yəni ekoloji sistemdə, buna bənzər dəyişikliklərin əmələ gəlməsinə yol açmışdır. Sürətli şəhərləşmə və ona bağlı olaraq şəhər salmaların struktrunda meydana gələn bəzi xoşagəlməz məsələlər havanın kirlənməsinin ən başlıca səbəblərindən biridir. Şəhərin böyük bir insan kütləsinin yerləşdirilməsi ilə əlaqədar, birbaşa ətraf mühitə (təbiətə) zərər verəcək bir strukturu vardır və təbii sərvətlərlə zəngin yerlərin yuxarıdakı problem və buna bənzər səbəblərlə pozulması, ekoloji problemlər səbəbi ilə böyük xoşagəlməz problemlər ortaya çıxır.

Qarşıdan gələn illərdə şəhərlər yaşayış mərkəzləri kimi özlərinin üstün mövqeyini hələ gücləndirməyə davam edəcəkdir. Digər tərəfdən, şəhərin mövcud istehlak strukturları içərisində ehtiyatlardan çox sürətlə istifadə etməsi nəticəsində meydana gələn tullantıların ətrafa atılması və bütün bunların genişləməsinə yayılması üzündən insanla təbiət arasında qarşılıqlı müvazinət mənfi təsirlərə məruz qalır. Şəhərdə yaşayanların həyat səviyyəsinin yüksəldilməsindən doğan narahatlıq da əslində ekoloji problemlərin kəskinləşməsi ilə bağlıdır (15, s.100-101). Yerlərdə şəhərlərin funksionallığına yeni baxış bucağı altında diqqət yetirilməsini nəzərdə tutan davamlı şəhər və ya şəhərlərin davamlı inkişafı konsepsiyası təbii ehtiyatların istifadəsində, tullantıların qiymətləndirilməsində və şəhər həyat tərzinin daha dinamik tərzə sahib olmasında şəhər idarəetmə orqanlarına və şəhərdə yaşayanlara yeni imkanlar vəd edir. Şəhərlərin davamlı inkişafının təmin oluna bilməsi üçün ilk əvvəl yerli səviyyədə işlənib hazırlanacaq qərarlar və göstəriləcək fəaliyyətlərin milli siyasətlərlə dəstəklənməsi və onlarla ahəngdar bir şəkildə tənzimlənməsi lazımdır (2, s.251-263).

Üçüncü dünya ölkələrindəki şəhərlərin yüksəlişi deyərkən burada şəhərlərin yaşıllaşdırılması, çirklənməyə qarşı təsirli tədbirlər görülməsi, yaşıllıq ərazilərin qorunub saxlanması və inkişaf etdirilməsi bərabər şəhərətrafı sahələrdə meşələr salınmasından başqa bir də yenidən qurulma prosesi də ehtiva olunur. Həmin proses eyni şəkildə daha yaxşı bir nəqliyyat sistemi, sosial xidmətlər, resurslardan və enerji ehtiyatlarından şəhər sistemi içərisində daha rasional istifadə etmək üçün tullantıları dəyərləndirən, ekoloji cəhətdən təmiz və yeni texnologiyaların imkanlarından istifadəni də nəzərdə tutur. Şəhərləri yaşıllığa bürünməsi daha üst səviyyədə şəhərin vəzifələrinin yenidən nizama salınmasını zəruri edir. Digər tərəfdən kənd təsərrüfatı, sənaye və şəhərdəki fəaliyyətlərin məkani yayılması da burada əhəmiyyətli yer tutur.

## TÜRKİYƏDƏ URBANİZASİYA

Urbanizasiya prosesinin belə hədsiz sürəti Türkiyənin bir ölkə kimi ictimai və iqtisadi strukturunun formalaşması və dəyişməsini müəyyən edən ən mühüm amillərin ilk sırasında gəlir. Yaşadığımız hazırkı dövrdə şəhər əhalisinin illik artım sürəti 4,7 faiz-ə yaxındır və artıq illik əhali artımının üç qatına yüksəlmişdir (14, s.169). Şəhərlərdə yaşayan əhalinin payı 1990-cı ildə 59 faiz təşkil etmişdir ki, hesablamalara görə bu rəqəm

2000-ci ildə 66,4 faizə çatacaqdı[1]. Son zamanlar Anadolunun müxtəlif şəhərlərində əhalinin artımında getdikcə artan bir sürət özünü göstərir. Bununla yanaşı, İstanbul, İzmir, Bursa, Adana kimi böyük şəhərlərlə turizm baxımından əhəmiyyətli yerlərdə olan şəhərlərdə urbanizasiya prosesi daha sürətlə davam etməkdədir.

Urbanizasiya prosesinin belə sürətlə davam etməsi ilə həmin prosesə paralel şəkildə şəhərlərin strukturu da bir çox ciddi problemin təməlini təşkil etməkdə, şəhərin başlıca iqtisadi və sosial tələblərinin geniş bir şəkildə və lazımınca yerinə yetirilməsinə imkan verməməkdə, şəhərlərin, ələlxüsus da böyük şəhərlərin istehlak strukturlarına və ekoloji sistemlərə ən müxtəlif səviyyələrdə təsir göstərərək mənfi nəticələrin doğmasına səbəb olmaqdadır.

Türkiyədə böyük şəhərlərin meydana gəlib formalaşması rekord deyiləcək qədər çox qısa bir müddətdə gerçəkləşmişdir. Əhalisi 20 mindən yuxarı olan yaşayış məskənləri nəzərə alınmaqla belə şəhərlərdə yaşayanlar bütünlükdə əhalinin təxminən 66,4 faizini təşkil edir. Bu əhalinin yaşayış yerlərinə görə paylanmasına baxılarsa aydın olar ki, onların əksəriyyəti məhz böyük şəhərlərdə məskunlaşıbdırlar. Əhalisinin sayı 100 mindən artıq olan yalnız 56 yaşayış məntəqəsində isə şəhər əhalisinin 67 faizə qədəri yaşamaqdadır[2]. Türkiyədə urbanizasiya proses olaraq böyük şəhərlərə doğru istiqamət almışdır.[3] İri şəhərlər bir tərəfdən əhalinin təbii artımı yoluyla, digər tərəfdən də kəndlərdən, dağlıq və dağətəyi rayonlardan əhalinin şəhərə köç etməsi nəticəsində sürətlə böyüməkdə və bununla urbanizasiya prosesinin bütün yükünü də öz üzərinə götürməkdədir.

Türkiyədə urbanizasiyanın xüsusilə də bir neçə böyük şəhər çevrəsində gerçəkləşməsi əhalinin əsasən məhz bu şəhərlərdə və ona yaxın yerlərdə özü də sıx bir şəkildə məskunlaşmasına səbəb olmuşdur. Digər yandan, istehsal qüvvələrinin və yeni yaradılan sənaye sahələrinin əsas etibarilə bu yerlərdə sıx bir şəkildə toplanması da ölkə daxilində qütbləşməyə və bölgələr arasında əhalinin qeyri-proporsional məskunlaşmasına yol açır. Yeni istehsal müəssisələrinin yalnız bəzi regionlardakı iri şəhərlərin ətrafında açılması və məhsuldar qüvvələrin də məhz bu yerlərdə toplaşması yalnız həmin bölgələrin inkişaf etmiş ölkələri xatırladacaq qədər zənginləşməsinə səbəb olmuşdur. Bunun müqabilində isə əhalinin belə sıx məskunlaşmasından öz payını ala bilməyən bölgələr işçi qüvvəsi və sənayeləşmənin həmin inkişaf eləməkdə olan bölgələrə necə keçməsini sadəcə qıraqdan seyr edə-edə qalaraq sosial və iqtisadi baxımdan aşınmaya məruz qalmaqdadırlar. Bu proses davam elədikcə regionlar arasındakı fərqlər də özünü daha aydın hiss etdirir, bu isə özlüyündən cürbəcür iqtisadi, sosial və siyasi baxımdan qeyri-stabilliyin mənbəyinə çevrilir (6; 16).

Türkiyə Milli Ekologiya Strategiyası və Fəaliyyət Planı daxili miqrasiya, sürətli urbanizasiya və bunların ortaya çıxardığı problemlərə xüsusi diqqət yetirməkdədir. Əhali və urbanizasiya ilə bağlı məsələlər istər UÇEP-in qeydə aldığı problemlər sırasında, istərsə də göstərilən fəaliyyətlər cəhətdən əhəmiyyətinə görə daha çox üstünlük verilir və bu üzdən xüsusi diqqət yetirilən məsələlərdəndir (17, ek 1/9, ek 6/2). Planda xüsu-

[1] Türkiyədə urbanizasiya prosesi 1950-ci illərdə daha böyük sürət qazanmışdır. Şəhərlərin böyümə sürəti gedərək yüksəlmiş, 1980-1990-cı illər arasında nisbi bir yavaşıma müşahidə olunsa da, bununla birlikdə şəhər əhalisinin sayındakı artım sürətinin 1990-ci illərdə yenidən yüksəldiyi müşahidə olunmuşdur.

[2] 1990 Nüfus Sayımı, İstatistik Yıllığı, DİE yayınları, Ankara, 1995, z.y.

[3] Dövlət Statistika İnstitutunun aparmış olduğu bölgünü qəbul etmiş olsaq, vilayətlərdə və qəza mərkəzlərində yaşayanlar şəhər əhalisini, kəndlərdə yaşayanlar da əhalinin kəndli qismini təşkil edir. Bu bölgüyə əsasən, 1990-ci ildə əhalinin siyahıya alınmasına görə 894 yaşayış məntəqəsində 33.326.351 nəfər vilayətlərdə və qəza mərkəzlərində, 23.146.684 nəfər isə kəndlərdə yaşamaqdadır. Şəhər əhalisi əhalinin ümumi sayının 59,01%-ni, ucqarlarda yaşayan kənd əhalisi isə 41% təşkil etmişdir. 1985-1990-cı illər arasında şəhər əhalisinin artımı 43.10%, kənd əhalisinin artımı isə 5.56% olmuşdur.

sən də əhalinin hərəkətliliyi şəklində səciyyələndirilən daxili köç hadisəsinin bir proses kimi idarə olunmasının zəruriliyi fikri daha çox diqqəti çəkməkdədir. UÇEP xüsusilə əyalətlərdə yaşayanların ucqar bölgələrdən şəhərətrafı yerlərə doğru davam etməkdə olan köçünün qarşısını almağın mümkün ola bilməyəcəyi fikrini də üstüörtülü olaraq qəbul edir.[1] Tövsiyə olunan fəaliyyət proqramı iki əsas başlıq altında qruplaşdırıla bilər. Bunlardan birincisi böyük şəhərlərdə əhalinin sıx bir şəkildə məskunlaşmasını yavaşladacaq mahiyyətdə olub, şəhərlərin ölkə miqyasında yerləşmə planında bərabərliyi təmin edərək əhalinin də beləcə, ölkə ərazisində bərabər şəkildə paylanmasına şərait yaradacaq tədbirlərdir. Bunlar inkişaf strategiyaları işlənib hazırlanarkən problemin daim diqqət mərkəzində saxlanılması, bununla da maksimum imkanları nəzərə alınmaqla orta həcmli yaşayış məskənlərinin yaradılması və inkişaf etdirilməsi ilə bağlı fəaliyyətlərdir. İkinci mərhələ fəaliyyətlər isə şəhər həyatının daha davamlı ola bilməsi və davamlı inkişafın prinsiplərinin nəzərə alınmasına istiqamətlənmişdir (5, s.45-54; 7; 8).

## AZƏRBAYCANDA URBANİZASİYA

Ölkədə planlı təşkilatların yaradılması və bu sahədə mütəxəssislər yetişdirilməsi urbanizasiyanın elmi əsaslar üzərində həyata keçirilməsi işinə bölük ölçüdə yardım göstərmişdir. Bununla birlikdə Azərbaycanda şəhər quruculuğunun inkişafında nöqsanlar və həllini tapmamış problemlər də hələ ki yox deyildir. Ölkənin özünəməxsus təbii şəraiti şəhərlərin planlarında lazımi şəkildə öz əksini tapmamışdır.

Son zamanlar şəhərlərin boş torpaqlarında qurulmuş yaşayış məskənləri estetik cəhətdən aşağı səviyyəli olması ilə sezilir. Kiçik və orta böyüklükdə olan şəhərlərin planlaşdırılması işinin təşkilində də böyük nöqsanlar vardır. Çox vaxt şəhərlərdə binalar tikilərkən şəhər planları, şəhər quruculuğu işinin tələbləri nəzərə alınmır və nəticədə həmin şəhərlərin planlı inkişafı olduqca çətinləşir (1, s.46-47). Planlarda ortaya çıxan və şəhər quruculuğuna xələl gətirən təhriflər təxminən aşağıdakılardan ibarətdir:

Şəhər planlaşdırılarkən nəzərdə tutulan yüksəklik, sahə və istifadə olunan sahələrin bölünməsi prinsipləri lazımi şəkildə həyata keçirilmir. Şəhər ərazisinin səmtlərə ayrılması işi pozulur. Sənaye müəssisələri üçün olan və ya yaşıllıq sahələr fərdi inşaat məqsədilə istifadə olunur. Şəhər planında nəzərdə tutulmuş mərtəbə sayı diqqətə alınmır və çoxmərtəbəli mənzillər tikilir ki, bunun da nəticəsində şəhərin ərazisi lazımsız olaraq genişləndirilir.

- Lüzumsuz yerə ictimai binaların yeri dəyişdirilir. Məsələn, Tovuzda tikilmiş stadionun yeri dəyişdirilmiş, eyni şəkildə Füzulidə də mehmanxana binasının yeri dəyişdirilərək şəhər planı kənarına çıxarılmışdır.
- Şəhər planında müəyyən olunmuş prospektlər şəbəkəsinin pozulması halları da müşahidə edilməkdədir.
- Xüsusi yaşayış binaların tikintisində qəbul olunmuş və təsdiqlənmiş plandan kənara çıxmalar olduğu üçün şəhərlərin memarlıq görünüşünə də xələl gəlir. Bu vəziyyət xüsusən də son dövrlərdə ölkənin paytaxtı Bakı şəhərində müşahidə olunmaqdadır. Şəhərin müxtəlif səmtlərində bir neçə yüksək bina, çoxmərtəbəli evlər inşa edilməsinə başlanmışdır. Bir qisminin tikintisi başa çatdırılan bu yüksək yaşayış binaları şəhərin ümumi panoramını pozur (9).

---

[1] Adam başına düşən gəlirlərin artması anlamında iqtisadi inkişaf prosesinin ən önəmli özəlliyi kənd təsərrüfatı sektorunun istər ölkədaxili hasilat, istərsə də məşğulluq içərisindəki payının sürətlə azalmasıdır. Çeşidli iqtisadi və sosial güclərin ortaya çıxardığı bu faktor sənayeləşmiş cəmiyyətlərin yaxın keçmişləri göz önünə gətirilən zaman açıqca ortaya çıxmaqdadır. Bu, inkişaf prosesinin qaçılmaz bir nəticəsidir. Türkiyədə də olanların mahiyyətində bu dayanır. Bunun üçün də Türkiyədə zaman-zaman ortaya çıxan ölkədaxili köçü yavaşıtma, daha doğrusu, əyalətlərdə yaşayan əhalini yaşadığı yerlərdə qalmağa məcbur etmək şəklində bir yanaşma tərzi və cəhdlərinin bir nəticə verəcəyini söyləmək çox çətindir.

Azərbaycanda daha əvvəllər hazırlanmış olan şəhər planlarının çoxusunun müddəti bitmək üzrədir. Bu baxımdan Bakının hazırlanmaqda olan yeni şəhər planı böyük əhəmiyyət daşımaqdadır. Şəhər quruculuğunda nəzərdə tutulan yeni xüsusiyyətlər, o cümlədən aam başına düşən yaşayış sahəsinin artırılması, eyni zamanda binaların mərtəbələrinin sayının çoxaldılması, Xəzər problemindən başlamış nəqliyyat problemlərinə qədər bütün məsələlər şəhərin yeni planında öz əksini elmi əsaslar üzərində tapmalıdır. Abşeron yarımadasının mərkəzinə qədər genişləmiş olan şəhər ərazisinin tək planla birləşdirilməsi çətinliklər törədir. Çünki əvvəlcə fəhlələrin yaşamaları üçün planlaşdırılan yaşayış sahələri (mikrorayonlar) tikilərkən onların ümumi şəhər planı daxilində birləşdirilməsi nəzərdə tutulmamışdı. İndi başlıca vəzifə də plan və inşaat fəaliyyətlərinə üz tutmaqla bu problemin həlli yolunu tapmaqdan ibarətdir. Bunun üçün də əvvəllər neft istehsal olunan, indi isə boş qalmış olan ərazilər müəyyən edilərək yaşıllıq yerləri, inşaat sahələri, su hövzələri kimi istifadə oluna bilər.

Problemlərdən biri də son illər gecəqondu deyilən bir təmayülün özünü göstərməsindən ibarətdir. Ermənistandakı öz ata baba torpaqlarından didərgin düşərək Azərbaycana sığınacaq yeri kimi üz tutan qaçqınlar və eləcə də Azərbaycanın Qarabağ və onun ətrafındakı torpaqlarını Ermənistanın işğalı nəticəsində bu yerlərdə yaşayan əhalinin də Azərbaycana köç axını burada mənzil problemini bütün ciddiyyəti ilə ortaya çıxarmışdır. Bunun nəticəsində gecəqondular salınmışdır ki, həmin gecəqondularda da daha çox müharibə nəticəsində evsiz-eşiksiz qalan insanlar məskən salmaqdadırlar. Azərbaycan torpaqlarını Ermənistanın işğalı nəticəsində öz yurd-yuvalarından köç etmək məcburiyyətində qalan həmin qaçqın və köçkünlər isə əsasən də Bakı şəhərində məskunlaşmışlar. Müharibə gedən ərazilərdə əhalinin kütləvi miqrasiyası onları bütün kənd rayonlarından çətin ekoloji və sosial şəraiti olan Abşeron iqtisadi mərkəzinə toplayır və çətin problemlər yaradır. Müharibə başa çatan zaman bir qismi doğma yurd-yuvasına dönəcəyindən, lakin bir qismi də köçüb gəldiyi indiki yerdə qalacağından neçə illər keçsə belə, bu hadisə ölkədəki əhalinin ümumi sayına və bütövlükdə ölkədəki demoqrafik proseslərə təsirsiz qalmayacaqdır.

## DƏYƏRLƏNDİRMƏ: TƏKLİF VƏ TÖVSİYƏLƏR

Əhalinin böyük şəhərlərə güclü axınının və bu yerlərdə sənayenin təzyiqini azalda bilmək, ahəngdar və sağlam əsaslar üzərində ola bilən urbanizasiya prosesinin gedişini təmin etmək məqsədilə aşağıdakı başlıca fəaliyyətlər tövsiyə olunur:

1. İqtisadi baxımdan inkişaf etməkdə olan bölgələrlə müəyyən sektorlarda potensiala sahib bölgələrdə inkişaf prosesinin sürətləndirilməsi, resurslardan daha fəal bir şəkildə istifadə olunmasını təmin etmək üçün bu regionlarla bağlı planlar işlənib hazırlanmalıdır.
2. Bəlli bir yerdə əhalinin məskunlaşmasında mərhələliliyə nail olmaqla tarazlığı təmin etmək və şəhər yerlərinə üz tutan əhalinin sayının azaldılması və eləcə də sənaye sahələrinin sıx mərkəzləşməsinin qarşısını almaq üçün, regionlar arasında və regiondaxili miqrasiyaları nəzarətdə saxlamaqdan ötrü az inkişaf etmiş regionların mərkəzi rolunu oynayan şəhərləri və mərkəz funksiyasını üzərinə götürə bilən kənd rayonlarından ibarət yaşayış məskənlərinin inkişafına dəstək vermək, bunun üçün isə gərək olan vasitələrdən istifadə edilməsi lazımdır.
3. Bölgələr arasında əhalinin hərəkətlənmələrinin qarşısı miqrasiyanın daha böyük olduğu regionlarda əmək məşğulluğu üçün geniş imkanlar yaradılmaqla alınmalıdır. Xüsusən kiçik şəhərlərin inkişafına diqqət verilməlidir ki, bu da əhalinin miqrasiya axımını nizama salmaqdan, iri şəhərləri həddən artıq böyüməsinin qarşısını almaqdan, kiçik şəhərlərin isə ictimai və sosial həyatını zənginləşdirməkdən ötrü vacibdir.

4. Ölkədə yerləşmə sistemi regionların inkişaf potensialını qiymətləndirmək imkanı verəcək şəkildə idarə olunmalı, şəhərlər arasında ixtisaslaşmanı təmin etmək məqsədilə bu şəhərlərin (məsələn, turizm, sənaye və s. kimi) yerinə yetirə biləcəyi müəyyən funksiyaları daşıması cəhəti nəzərə alınmalı və məhz həmin cəhətlərə üstünlük verilməlidir. İnvestisiya qoyularkən və ya azad iqtisadi zona yaradılarkən belə şəhərlərin özünəməxsusluğu və potensial imkanları nəzərə alınmalıdır.

5. Şəhərlərdə yaşayan əhalinin urbanizasiya prosesində fəal iştirakı və bu məqsədlə də yaşayış məskənlərində sağlam həyat tərzi keçirməyə imkan verən təmiz ekoloji mühit yaradılmalıdır.

6. Şəhərlərdə xidmət səviyyəsini və yaşayış standartlarını yüksəltməyə yönəlmiş sərmayə qoyuluşuna üstünlük verilməsi, mənzil, torpaq sahəsi, nəqliyyat və başqa problemlərin vaxtında ortadan qaldırılması və şəhərlərin böyümə tempinə uyğun planlaşdırma, eləcə də şəhərlərin struktur baxımından sosial və texniki imkanlarını inkişaf etdirmələrinə şərait yaradılması zəruridir (19).

7. Düz yerlər, dəniz və göl kənarları, rabitə sahələri, sənaye müəssisələrinin yerləşə biləcəyi sahələr kimi istifadə tələblərinin daha yüksək olduğu yerlərdə inkişafı yönləndirə bilmək üçün ərazi istifadə planlarının hazırlanmasına üstünlük verilməlidir.

8. Rekreativ zonalarda gündəlik şəhər yaşayışında istifadə oluna biləcək bir şəkildə açıq və yaşıllıq ərazilər salınmalı, şəhər ətrafında həftənin axırı adamların rahat dincələ bilmələri məqsədinə xidmət göstərən istirahət zonaları yaradılmalıdır.

9. İstər nəqliyyatdan qaynaqlanan, istərsə də iş yerlərində müəyyən olunan standartlardan daha artıq səs-küy olması halları nəzarət altında tutulmalıdır (11, s.5).

10. Binalar tikilərkən tikililər istifadə məqsədinə uyğun olaraq həm də kompozisiya və konstruktiv, müasir şəhərsalma və memarlıq tələblərinə cavab verməli, iqlim şəraiti, binanın fəza şərtiliyi, eləcə də binanın ətrafında yaşıllıq ərazi, oyun, qaraj və s. tələbatlara cavab verə bilməsi nəzərə alınmalı, estetik baxımlılığı həll olunmalıdır.

11. Şəhər əhalisinin sayının sürətli artması ilə birlikdə tullantılar problemi də yüksək həddə çatdığından həmin tullantıları iqtisadi baxımdan məqsədəuyğun qiymətləndirmək, onlardan insanların sağlamlığına əsla zərər göstərməyəcək bir şəkildə onlardan faydalana bilmək, bunlara imkan olmadığı halda isə həmin tullantıları ekologiyanı qətiyyən hər hansı mənfi təsirə məruz qoymayacaq bir şəkildə ləğv etmək lazımdır.

12. Paltaryuyan dərmanlar tərkibində xüsusilə aktiv maddələr və fosfatlı birləşmələr olduğundan getdikcə artan bir ölçüdə çirklənməyə yol açır ki, bu üzdən də həmin dərman tozlarının tərkibindəki xam maddələr suyu ən az çirklənməyə məruz qoyacaq miqdarda olmalı, suda asanca parçalana bilən maddələrdən istifadə edilməlidir.

13. Yollarda və açıqlıq yerlərdəki zibil qutuları istifadəyə yararlı olmalı, standartlara cavab verməlidir; Ətraf mühitə, insan sağlamlığına zərərli olmasın deyə zibillərin yığılıb ləğv edilməsi, yandırılması, təkrar istifadəyə yararlı ola biləcək tullantılar isə ayırd edilməlidir. Həmin tullantılar hər nə qədər kənd təsərrüfatı məqsədilə istifadə olunsa da, aradakı böyük itkini azaltmaq üçün onların bitki tərkibli və üzvi maddə qaynağından daha geniş ölçüdə istifadə edilməsinə çalışmaq lazımdır. Bunlardan sonrakı mərhələdə hətta üzvi gübrə kimi istifadə etmək imkanı da artmış olacaqdır (18, s.48).

14. Zibilliklərin ləğv olunması baxımından ən səmərəli yol həmin zibilləri kənar maddələrdən mümkün qədər təmizlədikdən sonra yığınlar şəklində lazımınca nəm, havalandırma ilə qıcqırma prosesinə məruz qoyaraq – vermentasiya edərək çürüdüb gübrəyə çevirmək, yerdə qalan şüşə, tənəkə kimi qalıntıları isə təkrar sənayenin istifadəsinə verməkdən ibarətdir. Belə müxtəlif qatışıqları komposta çevirərək gübrə düzəltmək həmin tullantı maddələri yox etməyin bəlkə də ən səmərəli və iqtisadi baxımdan ən mənfəətli yoludur. Çünki bu proses sonunda gübrə adlandırılan qiymətli məhsul əldə etmək im-

kanı olur. Tullantıların yığışdırılması, işlənməsi və qiymətləndirilməsi məqsədilə işlənib hazırlanacaq siyasət, strategiya və proqramlar, qısacası, tullantılardan davamlı inkişaf üçün istifadə sistemi ekoloji mühitə həssaslıqla yanaşmağın bir şəklidir (12, s.73-74).

15. Dəniz, çay kənarları, su mənbələrinin urbanizasiya prosesinin mənfi təsirlərindən qoruna bilməsi üçün normalar qaydaya salınmaqla bərabər, bu tənzimləmələr dar bir çərçivədən çıxarılmalı, həmin zonalar isə daha geniş dairədə qorunmalıdır (10, s.234).

## ƏDƏBİYYAT

1.Abdullayev, T. Ə., "Fərdi yaşayış evlərinin həcm-planlaşdırma konstruktiv həlli", Azərbaycan Memarlıq və İnşaat Universiteti, 25 illik yubileyə həsr olunmuş Beynəlxalq Elmi Konfransın Materialları, Bakı-2001, s.46-47.

2.Bayram, Ferhat, "Sürdürülebilir Kentsel Gelişme: Araçlar, Yaklaşımlar ve Türkiye", Prof. Dr. Cevat Geray'a Armağan içinde, Mülkiyeliler Birliği Yayını, Ankara, 2001, s.251-263.

3.Devlet İstatistik Enstitüsü, 1990 Nüfus Sayımı, İstatistik Yıllığı, DİE yayınları, Ankara, 1995.

4.Əliyev, F. Ş., "Bayıl yamacında növbəti sürüşme fövqəladə hallara səbəb olacaqdır", Fövqəladə Hallarda Ekologiya və Texnologiya Problemləri" II Beynəlxalq Simpozium, 8-10 Oktyabr 2002-ci il, s.135-137.

5.Eraydın, Ayda, "Sürdürülebilir Gelişmenin Planlanması Konusunda Yeni Yaklaşımlar". Sürdürülebilir Kalkınma Sempozyumu. TMMOB, Ankara, 1996, s.45-54.

6.Eryılmaz, Bilal, "Kentleri Yünetilebilir Kılmak", Yeni Türkiye Dergisi, Habitata II Özel Sayısı, 96/8.

7.Gürpınar, Ergun, "Kent ve Çevre Sorunlarına Bir Bakış", Der Yayınları, İstanbul-1993.

8.İsbir, Eyüp G., "Şehirleşme ve Meseleleri", Geliştirilmiş İkinci Baskı, Ankara-1991.

9.İsmaylov Ənvər, "Azərbaycan şəhərlərinin plan quruluşu, Bakı, 1974.

10.Keleş, Ruşen ve Hamamcı, Can, "Çevrebilim", İmge Kitabevi Yayını, Ankara-1997.

11.Məmmədova, G. H., Ocaqov H. O., "Şəhərlərin mühəndis tikinti təhlükəsizliyi", Fövqəladə Hallarda Ekologiya və Texnologiya Problemləri", II Beynəlxalq Simpozium, 8-10 Oktyabr 2002-ci il, s.5.

12.Palabıyık, Hamit, "Kentsel Katı Atıkların Yönetimi: Geri Kazanım ve Sürdürülebilirlik Konusunda Perspektifler", Türk İdare Dergisi, Mart-1999, Sayı 422, s.73-74.

13.Samedov, Q.Y., Promışlennıe qoroda Azerbaydjana, Leninqrad, 1983.

14.Sekizinci Beş Yıllık Kalkınma Planı 2001-2005, DPT yayını, Ankara, 2000, ss.169.

15.Şekur, Teslim, "Sürdürülebilir Kalkınma ve Kalkınmakta Olan Ülkelerin şehirleri", Habitat II Kent Zirvesi, İstanbul 96, Uluslararası Bilimsel Toplantılar, 3-12 Haziran 1996, İstanbul Büyükşehir Belediyesi Kültür İşleri Daire Başkanlığı, Cilt 2, s.100-101.

16.Tokuçoğlu, Bülent, "Çevre Sorunları ve Kentleşme", Ekoloji: Çevre Dergisi, Ocak-Şubat-Mart 1993, Sayı: 6.

17.Türkiye Ulusal Çevre Stratejisi ve Eylem Planı, DPT yayını, Ankara, 1998.

18.Valehov H. Q., "Yeni iqtisadi şəraitdə avtomobil yollarının idarə edilməsi", Azərbaycan Memarlıq və İnşaat Universiteti, 25 illik yubileyə həsr olunmuş Beynəlxalq Elmi Konfransın Materialları, Bakı-2001, s.48.

19.Zengin, Eyüp, İbrahimov, Rövşən, "Dayanıqlı İnkişaf və şəhərsalma problemləri", "Rüzgar" Ekoloji Cəmiyyəti, Odlar Yurdu Universiteti, Azərbaycan Milli Elmlər Akademiyası Radiasiya Tədqiqatları Sektoru, Azərbaycan Dayanıqlı İnkişafa Keçidin Problemləri Konfransı Bakı, 30-31 May, 2001.

**Tarix və onun problemləri, №3 2009**

**ЭЙЮП ЗЕНГИН**

## ИДЕЙИ И СОВЕТЫ КАСАЮЩИЙСЯ ДЛИТЕЛЬНОЙ УРБАНИЗАЦИИ В ТУРЦИИ И АЗЕРБАЙДЖАНЕ

Сильное увеличение роста населения в нашем столетии и рост числа городов способствовали образованию определенных проблем в экологической среде, то есть в сфере с чем человек имеет очень много связей. Сильная городизация и связанные с этим неприятные задачи являются самыми первыми причинами загрязнения воздуха. В связи с тем, что в городе скапливается громадное количество населения, создается большое количество вредного воздействия на природу. И сталкивание богатых природных ресурсов с этими проблемами создает неблагоприятную среду, возникают многочисленные экологические проблемы.

**EYUP ZENGIN**

## IDEAS AND THOUGHTS ON THE RAPID GROWTH OF URBANIZATION IN TURKEY AND AZERBAIJAN

Rapid increase in population and urbanization in this century has led to some imbalances in the ecosystem, which is composed of a system based on the interconnection between the human and nature. Rapid growth of urbanization and thus the negative developments taking place in the structure of urban population is one of the major causes of air pollution .The city has the nature of influencing the environment directly and negatively as a result of the increasing urban population. Especially, the urban population settlement on agricultural lands and the destruction of urban and fertile areas in terms of natural resources and so forth have led to the negative environmental developments.

***Rəyçilər: prof.X.İbrahimov, t.e.d.İ.M.Məmmədov.***

***Azərbaycan Universiteti «Fəlsəfə» kafedrasının 10 iyun 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №6).***